Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.

Heydər Əliyev.



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 3-4 (9211-9212) | 29 fevral 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik

## Qazax rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının yaradılması haqqında Qazax rayon İcra Hakimiyyəti Başçısının Sərəncamı

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 03 fevral 2016-cı il tarixli Fərmanının icrasını rəhbər tutaraq, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqların müdafiəsi məqsədi ilə

**QƏRARA ALIRAM:**

1. Qazax rayon İcra Hakimiyyətinin aşağıdakı tərkibdən ibarət Apellyasiya Şurası yaradılsın.

| | | | |
|---|---|---|---|
| - | Tahir Musayev | - | Rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri – Şuranın sədri |
| - | Məmməd Alıyev | - | Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| - | Mehdi Həsənov | - | Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri |
| - | İlyaz İsmayılov | - | Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin məsləhətçisi |
| - | Aqil Qurbanov | - | Rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini |
| - | Sərdar Orucov | - | Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi |
| - | Akif Vəliyev | - | Rayon İcra Hakimiyyəti başçısının Qazax şəhər inzibatı ərazi dairəsi üzrə nümayəndəsi |

2. Qazax rayon İcra Hakimiyyətinin aşağıdakı tərkibdən ibarət Apellyasiya Şurasının Katibliyi yaradılsın.

| | | | |
|---|---|---|---|
| - | Gündüz Abışov | - | Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| - | Ülviyyə Orucova | - | Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin məsləhətçisi |
| - | Hacıalı Məmmədov | - | Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi |

1. Şuranın sədri Apellyasiya Şurasının fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlər görsün.
2. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Ayaz Əsgərov**
**Qazax rayon İcra Hakimiyyətinin Başçısı**

*Qazax şəhəri, 05 fevral 2016-cı il*

## Rayonumuzda Xocalı soyqırımı qurbanlarının xatirəsi anılmışdır

**Xocalı soyqırımının 24-cü ildönümü münasibətilə respublikanın hər yerində olduğu kimi, Qazax rayonunda da bir sıra silsilə tədbirlər həyata keçirilmişdir.**

Rayonun bütün yaşayış məntəqələrində, idarə, müəssisə və təşkilatlarında Xocalı qurbanlarının xatirəsi anılmış, təhsil, səhiyyə və mədəniyyət müəssisələrində soyqırıma həsr edilmiş foto, rəsm, şeir və inşa yazı müsabiqələri, ali və orta ixtisas təhsil müəssisələrində elmi-praktik konfranslar keçirilmişdir.

26 fevral 2016-cı il tarixdə rayonun bütün yaşayış məntəqələrində Azərbaycanın dövlət bayraqları endirilmiş və həmin gün rayon ərazisində soyqırım qurbanlarının xatirəsi bir dəqəqəlik sükutla yad edilmişdir.

Tədbirlər çərçivəsində Şəhidlər Xiyabanında şəhidlərin xatirəsinə ucaldılmış abidə önündə Xocalı soyqırımının 24-cü ildönümü münasibətilə anım mərasimi keçirilmişdir. Mərasimdə rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov, rayon rəhbərliyi, hərbi hissələrin və hüquq mühafizə orqanlarının şəxsi heyəti və əməkdaşları, çoxsaylı əmək kollektivləri, müharibə və əmək veteranları, gənclər, QHT və KİV nümayəndələri, yüzlərlə rayon sakini iştirak etmiş, şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə qərənfil dəstələri qoyulmuşdur.



Qazax şəhərində və rayonun kəndlərində olan məscidlərdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə dualar oxunmuş, gün ərzində insanlar Şəhidlər Xiyabanına gələrək faciə qurbanlarının xatirəsini anmışlar.

Sonra Qazax rayon Mədəniyyət Mərkəzində Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş, yazıçı-dramaturq Hüseynbala Mirələmovun eyniadlı pyesi əsasında hazırlanmış "Xəcalət" tamaşası göstərilmişdir.

## Səhiyyə Naziri Oqtay Şirəliyev Qazax rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirmişdir



**Azərbaycan Respublikasının Səhiyyə Naziri Oqtay Şirəliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirmişdir. Qazax Gənclər Mərkəzində keçirilən görüşdə yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların rəhbərləri, sahibkarlar, ziyalılar, ağsaqqallar, KİV və ictimaiyyət nümayəndələri iştirak etmişdir.**

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov görüşdə çıxış edərək son illər rayonumuzda görülən işlər, "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqram"ları çərçivəsində görülən işlər və nəzərdə tutulan layihələr barədə məlumat vermiş, Prezident İlham Əliyevin tapşırığı ilə bölgələrdə ictimaiyyət nümayəndələri ilə keçirilən görüşlərin əhəmiyyətini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Səhiyyə Naziri Oqtay Şirəliyev çıxış edərək bildirmişdir ki, Prezident İlham Əliyev bütün sahələrə, eləcə də səhiyyə sektoruna xüsusi diqqət göstərir. Tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi işləri bu gün də uğurla davam etdirilir. Son 10 ildə Azərbaycanda 600 səhiyyə müəssisəsinin tikilib və ya əsaslı təmir olunduğunu, müasir avadanlıqla təchiz edildiyini, təkcə ötən il yeni tikilmiş və əsaslı təmir olunmuş 26 tibb ocağının istifadəyə verildiyini və səhiyyə sahəsində dövlət proqramlarının uğurla yerinə yetirildiyini vurğulamışdır.

Sonra Nazir yerlərdə sahibkarlığın inkişafı üçün dövlət tərəfindən bütün mümkün addımlar atıldığını diqqətə çatdırmışdır. Bildirmişdir ki, biznes mühitinin yaxşılaşdırılması, sahibkarların dəstəklənməsi məqsədilə lisenziyalaşdırılan tibb fəaliyyət növlərinin təşkili işini də xeyli asanlaşdırıb. Nazir ölkədə aparılan islahatların daimi xarakter daşıdığını və dövlət başçısı tərəfindən səhiyyə sektorunun qarşısında qoyulan bütün vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün maksimum səy göstəriləcəyini deyib.

Tədbirdə iştirak edən Milli Məclisin deputatları Kamran Nəbizadə və Ülviyyə Ağayeva çıxış edərək görüş iştirakçılarını son illər parlamentdə sahibkarlığın inkişafı istiqamətində qəbul edilən qanunlar barədə məlumatlandırmışlar.

Sahibkarlardan Elçin Carçıyev, Tacəddin Mustafayev və başqaları çıxış edərək bildirmişlər ki, dövlət başçısı tərəfindən sahibkarlığın inkişafına göstərilən dəstək bu sahədəki problemlərin həllinə, daha yüksək nəticələr qazanılmasına imkan yaradır. İş adamları regionların inkişafına göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

### XOCALI SOYQIRIMI -- 24

## TƏDBİRLƏR PLANI HAZIRLANMIŞDIR

**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsinə dair tədbirlər planının hazırlanması haqqında 1 fevral 2016-cı il tarixli sərəncam imzalamışdır. 9-21/21 nömrəli sərəncama əsasən Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planı hazırlanmışdır.**

Tədbirlər planına uyğun olaraq rayonun idarə, müəssisə və təşkilatlarında Xocalı soyqırımı ilə bağlı anım mərasimlərinin keçirilməsi nəzərdə tutulmuşdur.

Rayonun ümumtəhsil məktəblərində Xocalı soyqırımına həsr olunmuş inşa yazıların, şeir və rəsm müsabiqələrinin keçirilməsi də tədbirlər planına daxil edilmişdir.

Rayonda fəaliyyət göstərən ali və orta ixtisas təhsil müəssisələrində Xocalı soyqırımına həsr olunmuş elmi-praktik konfransların keçirilməsinə aid göstərişlər verilmişdir.

Həmçinin rayonun kütləvi informasiya vasitələrinə Xocalı soyqırımına həsr olunmuş materialların dərc edilməsi ilə bağlı verilmiş tapşırıqlar da tədbirlər planında qeyd edilmişdir.

Qazax şəhərində şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə əklil və gül-çiçək dəstələrinin qoyulması da tədbirlər planında öz əksini tapmışdır.

Xocalı soyqırımı ilə əlaqədar rayonun yaşayış məntəqələrində Azərbaycanın Dövlət Bayraqlarının endirilməsi də tədbirlər planına daxil edilmişdir.

Tədbirlər planında Qazax Cümə Məscidində və rayonun kəndlərində olan məscidlərdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimlərinin təşkil edilməsi göstərilmişdir.

26 fevral 2016-cı il tarixdə saat 17:00-da bütün rayon ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi də tədbirlər planında öz əksini tapmışdır.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**"GÖYƏZƏN"**

## Apellyasiya Şurasının iclası keçirilmişdir

**Qazax rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının keçirdiyi iclasda Apellyasiya Şurasının üzvləri və katibliyi iştirak etmişdir.**

İclasın sədri, Qazax rayon İcra Hakimiyyəti başçısının müavini Tahir Musayev Apellyasiya Şurasının yaradılması və fəaliyyəti ilə bağlı məlumat verərək bildirmişdir ki, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 03 fevral 2016-cı il tarixli Fərmanına uyğun olaraq Qazax rayon İcra Hakimiyyəti başçısının 05 fevral 2016-cı il tarixli 9-21/23 nömrəli sərəncamı ilə Qazax rayon İcra Hakimiyyətinin Apellyasiya Şurası yaradılmışdır.

İclasda Apellyasiya Şurasının yaradılması haqqında əsasnaməyə uyğun olaraq Apellyasiya Şurasının və katibliyin üzvlərinin hüquq və vəzifələri nəzərlərinə çatdırılmış və müvafiq tapşırıqlar verilmişdir.

## Qazax rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə mənzil verilmişdir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 iyun 2014-cü il tarixli Sərəncamının icrası işlərinin davamı olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Qazax rayonunda 8 ədəd yeni fərdi yaşayış evini Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin istifadəsinə vermişdir.**

Evlərin təqdim olunması tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin müavini Natiq Məmmədov, Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov, Nazirliyin nəzdində tikilməkdə olan obyektlərin müdiriyyətinin direktoru Natiq Əzizov, İcra Hakimiyyətinin məsul işçiləri, idarə, müəssisə və təşkilat rəhbərləri, əlil ictimai birliklərinin, yerli ictimaiyyətin və KİV nümayəndələri iştirak etmişdir.



Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin müavini Natiq Məmmədov tədbirdə çıxış edərək Prezident İlham Əliyevin müharibə əlilləri və şəhid ailələrinə xüsusi diqqət və qayğısının həmin insanların rifah halının yaxşılaşdırılması, habelə yeni mənzillərlə təminatı istiqamətində məqsədyönlü tədbirlərin ildən-ilə gücləndirilməsinə şərait yaratdığını vurğulamışlar. Ölkəmizdə bütün sosial proqramların icrası, o cümlədən müharibə əlilləri və şəhid ailələrinin mənzillə təminatı işlərinin uğurla davam etdirildiyi, bu təbəqələrdən olan insanların maddi təminatlarının mütəmadi olaraq gücləndirildiyi qeyd edilmişdir. Bu istiqamətdə növbəti addım kimi, dövlət başçısının 16 yanvar 2016-cı il tarixli Fərmanı ilə şəhid ailəsi üçün Azərbaycan Prezidentinin təqaüdünün aylıq məbləği 10 faiz artırılaraq 2016-cı il fevralın 1-dən 220 manat müəyyən edildiyi, 19 yanvar 2016-cı il tarixli Fərmanla isə müharibə əlillərinə Prezidentin təqaüdünün aylıq məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılmaqla, bu təbəqədən olan I qrup əlillər üçün 165 manata, II qrup əlillər üçün 143 manata, III qrup əlillər üçün 110 manata çatdırıldığı bildirilmişdir.

Tədbirdə çıxış edən digər qonaqlar ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşlara, habelə bu döyüşlərdə şəhid olmuş insanların ailələrinə dövlət qayğısının artmasının bütün cəmiyyət tərəfindən rəğbətlə qarşılandığını vurğulamışlar.

Fərdi yaşayış evləri ilə təmin olunan Qarabağ müharibəsi əlilləri və şəhid ailələri onların sosial problemlərinin həllinə, həyat şəraitlərinin yaxşılaşdırılmasına, yeni mənzillərlə təmin edilmələrinə göstərdiyi yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Sonra tədbir iştirakçıları yeni fərdi yaşayış evlərinə baxış keçirmişlər.

## Səhiyyə Naziri rayonumuzda vətəndaşları qəbul etmişdir

**Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən dövlət orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.**

Qəbul zamanı vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün müxtəlif tədbirlər görülür. Bununla bağlı Azərbaycan Respublikasının Səhiyyə Naziri Oqtay Şirəliyev Qazax Müalicə-Diaqnostika Mərkəzində Qazax, Ağstafa, Tovuz və Gədəbəy rayonlarından olan vətəndaşları qəbul etmişdir. Qəbulda sakinlərin sağlamlıq problemləri, işlə təminat və digər məsələlərlə bağlı müraciətləri dinlənilmişdir. Vətəndaşların müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılmış, onların bəziləri yerindəcə həll olunmuşdur.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılmaq üçün qeydiyyata alınaraq nəzarətə götürülmüşdür.

## TƏDBİRLƏR PLANI HAZIRLANMIŞDIR

**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov 1 mart "Ümumdünya mülki müdafiə günü"nün keçirilməsi ilə bağlı 24 fevral 2016-cı il tarixli tədbirlər planını təsdiq etmişdir.**

Tədbirlər planında 01 mart 2016-cı il tarixdə rayonun idarə, müəssisə və təşkilatlarında 1 mart "Ümumdünya mülki müdafiə günü" ilə bağlı mülki müdafiənin rolu və vəzifələrini təbliğ edən tədbirlərin keçirilməsi qeyd edilmişdir.

Əhalinin fəlakət riskinin qarşısının alınmasında xəbərdarlıq sirenalarının xüsusi rol oynadığını nəzərə alaraq sirenaların hazır vəziyyətdə saxlanması ilə bağlı tədbirlərin görülməsi, rayonun təhsil müəssisələrində birinci dərs saatı mülki müdafiənin rolu və vəzifələri barədə məlumatların tələbə və şagirdlərə çatdırılması, həmçinin ümumtəhsil müəssisələrində mülki müdafiə üzrə normativlərin yerinə yetirilməsi ilə bağlı məktəbdaxili yarışların keçirilməsinin təşkil edilməsi tövsiyə edilmişdir.

Şəhər 2 saylı tam orta məktəbində nümunəvi mülki müdafiə gününün keçirilməsi, keçirilən tədbirin videolentə alınması və fotoşəkillərin çəkilməsinin təşkil edilməsi tapşırılmışdır.

1 mart "Ümumdünya mülki müdafiə günü" ilə əlaqədar Qazax Dövlət Rəsm Qalereyasında fövqəladə hadisələrlə bağlı rəsm müsabiqəsinin keçirilməsi də tədbirlər planında vurğulanmışdır.

Rayon mərkəzi xəstəxanasının tabeliyində olan tibb müəssisələrində fövqəladə hadisələrdə tibb xidmətinin fəaliyyəti ilə bağlı tədbirlərin keçirilməsinin təşkil edilməsi və videolentə alınması qeyd olunmuşdur. Qızıl Aypara Cəmiyyəti Qazax rayon bölməsi tərəfindən şəhər 2 saylı tam orta məktəbində ilkin tibbi yardım göstərilməsi işinin təşkil edilməsi də tədbirlər planında göstərilmişdir.

1 mart "Ümumdünya mülki müdafiə günü" ilə bağlı keçirilən tədbirlərin "Göyəzən" rayon qəzetində işıqlandırılması tədbirlər planında öz əksini tapmışdır.

Rayonda keçirilən tədbirlər barəsində yekun məlumatın Gəncə regional fövqəladə hallar və mülki müdafiə şöbəsinə göndərilməsi qeyd olunmuşdur.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**"GÖYƏZƏN"**

# HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Bununla əlaqədar Qazax rayonunda hesabat yığıncağı olmuşdur.**

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyev adına parka gələrək ümummilli liderin abidəsi önünə gül dəstələri qoymuşlar.

Sonra Gənclər Mərkəzinin akt zalında yığıncaq öz işinə başlamışdır. Hesabat yığıncağında rayon ictimaiyyətinin nümayəndələri, idarə və müəssisə rəhbərləri, sahibkarlar, KİV nümayəndələri iştirak etmişdir.

Tədbir iştirakçıları hesabat ilində ayrı-ayrı müəssisələr tərəfindən rayonda istehsal olunmuş məhsullardan ibarət sərgiyə baxmışlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov Qazax rayonunun 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış etmişdir. Qeyd etmişdir ki, yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinentinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilmişdir. Prezident İlham Əliyev bildirmişdir ki, 2015-ci ildə ölkəmizin qarşısında duran bütün vəzifələr uğurla icra edilmiş, sosial-iqtisadi proqramlar yerinə yetirilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov qeyd etmişdir ki, hesabat dövründə respublikamızda gedən dinamik inkişaf strategiyası Qazax rayonunda da davam etdirilmiş və 2015-ci ildə demək olar ki, bütün sahələr üzrə uğurlu göstəricilər qazanılmışdır. Hesabat dövründə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində yaddaqalan tədbirlər həyata keçirilmiş, bununla bağlı mühüm işlər görülmüşdür. Rayonda “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa və quruculuq işləri 2015-ci ildə də uğurla həyata keçirilmişdir.

Məruzə ətrafında çıxışlar olmuşdur. Rayon maliyyə idarəsinin rəisi Novruz Abdullayev, təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, rayon mərkəzi xəstəxanasının baş həkimi Arzu Novruzov, mədəniyyət və turizm şöbəsinin müdiri Valeh Vəliyev, suvarma sistemləri idarəsinin rəisi Abbas Göyüşov çıxış edərək hesabat dövründə görülən işlərdən söz açmışlar.

Tədbir iştirakçıları əvvəlcədən zalda quraşdırılmış mikrafon vasitəsilə öz təkliflərini söyləmişlər. Səslənən təkliflər barədə rayon rəhbərliyi öz fikirlərini bildirmişdir.

Azərbaycan Respublikası Prezident Administrasiyasının məsul işçisi Əlibaba Əliyev hesabat yığıncağında iştirak və çıxış etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə yığıncaq iştirakçıları adından müraciət qəbul olunmuşdur.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov hesabat yığıncağına yekun vuraraq qarşıda duran vəzifələrdən, həyata keçiriləcək işlərdən danışmışdır.

**Elçin İSMAYIL**



# 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair Qazax rayonu İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun HESABAT MƏRUZƏSİ

**Bildiyiniz kimi, yanvar ayının 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir. Ölkə başçısı iclasda bildirmişdir ki, 2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşmişdir. Əlbəttə, bizi ciddi narahat edir. Lakin sevindirici haldır ki, 2015-ci ildə ölkəmiz uğurla inkişaf etmişdir. Qarşıda duran bütün vəzifələr icra edilmişdir. Ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır. Azərbaycan bundan sonra da regionda və bütün dünyada sabitləşdirici rol oynamağa çalışacaqdır.**

Bunlarla yanaşı, əfsuslar olsun ki, 2015-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir irəliləyiş olmamışdır. Bunun da səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir. Azərbaycan bu münaqişənin həlli ilə bağlı öz mövqeyini bundan sonra da müdafiə edəcəkdir. Bizim mövqe beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanır. Azərbaycan bu istiqamətdə öz siyasətini aparacaq və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır. Azərbaycanın hərbi potensialı 2015-ci ildə böyük dərəcədə möhkəmlənmişdir.

2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. Əlbəttə ki, əvvəlki illərdə olan inkişaf əldə edilməmişdir. Çünki neftin qiyməti 3-4 dəfə aşağı düşmüş, manatın məzənnəsi devalvasiyaya uğramışdır. Burada ilk növbədə siyasi amillər öz rolunu oynamışdır. Kimsə kiminləsə mübarizə aparır, biz isə bundan əziyyət çəkirik. Ancaq biz çalışacağıq ki, bu məzənnənin dəyişməsi ilə bağlı mənfi fəsadların aşağı salınması üçün daha da fəal iş görək.

Buna baxmayaraq Azərbaycanda ötən il ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artmışdır. Bu bizi sevindirir, qeyri-neft sənayesinin 8,4 faiz artması bizim əsas göstəricimizdir. Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulmuşdur. Bunun yarısı xarici sərmayədədir, bu da çox müsbət haldır. Keçən il bütün sosial proqramlar icra edilmişdir. Heç bir ixtisar olmamışdır. Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən orta hesabla 152 manat yardım almışdır. Sosial infrastruktur layihələr icra olunmuşdur. Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, ancaq bu sahəyə biz vəsaiti təşkil edə bilmişik. Altmışa yaxın tibb müəssisəsi, 20-dən çox məktəb tikilib təmir edilmiş, hazırda 23 məktəbdə təmir işləri aparılır. Uşaq bağçalarının tikintisi davam etdirilir. Bu işlər bu il də davam etdirilməlidir. Regionların inkişafı 2015-ci ildə surətlə getmişdir. Yüz mindən çox yeni iş yerləri açılmışdır ki, onlardan 84 mini daimi iş yeridir. Lakin bununla yanaşı iş yerlərinin yaradılması ilə bağlı bu il əlavə tədbirlər görüləcəkdir.

Azərbaycanda demoqrafik vəziyyət müsbətdir. 2015-ci ildə əhalinin sayı 114 min nəfər artmışdır. Keçən il Türkiyənin Qars şəhərində TANAP layihəsinin əsası qoyulmuş və işlər uğurla davam etdirilir. Ötən il ölkəmizin həyatında tarixi hadisə baş vermiş və ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan bu oyunları ən yüksək səviyyədə keçirə bilmişdir. Azərbaycan komanda hesabında ikinci yeri tutmuş, idmançılarımız 56 medal qazanmışlar ki, onlardan 21-i qızıl medaldır.

Biz 2016-cı ildə iqtisadi inkişaf templərini təmin etməliyik. Keçən il müşahidə olunan mənzərə deməyə əsas vermir ki, 2016-cı ildə dünyada iqtisadi böhran başa çatacaq. Odur ki, biz daha da səmərəli işləməliyik və iqtisadi inkişaf templərini daxili resurslar hesabına, islahatlar, o cümlədən struktur islahatları nəticəsində təmin etməliyik. Xüsusilə, qeyri-netf sektorunun inkişafı xüsusi əhəmiyyət daşıyır. Bu il biz xarici investisiyaları Azərbaycana daha böyük həcmdə cəlb etməliyik. Azərbaycan xarici sərmayə üçün çox gözəl ölkədir. Eyni zamanda yerli sahibkarlar da Azərbaycan iqtisadiyyatına daha çox sərmayə qoymalıdırlar. Biz ölkəmizin valyuta ehtiyatlarını qorumalıyıq.

Beynəlxalq iqtisadi və maliyyə qurumları Azərbaycanda iqtisadi sahədə aparılan siyasəti yüksək qiymətləndirirlər. Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə 40-cı yerə layiq görüb. Bu doğrudan da böyük nailiyyətdir. Sahibkarlara güzəştli kreditlər verilməsi davam etdirilməlidir. Bu il bütün sosial proqramlar tam icra ediləcəkdir. O cümlədən məcburi köçkünlərin yaşayış problemlərinin həlli istiqamətində böyük vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Ötən il 15 min köçkün yeni evlərə köçmüşdür, bu siyasət davam etdiriləcəkdir.

Qazax rayonu üzrə 2015-ci ilin yerli gəlir və xərclərinin proqnozu 21.019.000 manat məbləğində müəyyənləşdirilmişdir. Büdcənin mədaxil hissəsinin 6.716.000 manatını yerli daxilolmalar, 14.303.000 manatını isə mərkəzləşdirilmiş xərclərdən alınacaq dotasiya təşkil etmişdir. Mədaxil hissədə yerli daxilolmalar 32,0 faiz, dotasiya isə 68,0 faiz olmuşdur.



2015-ci ildə yerli daxilolmalar 6.716.000 manat proqnoza qarşı 6.891.349 manat və ya 102,6 faiz yerinə yetirilərək büdcəyə 175.349 manat çox vəsait mədaxil olmuşdur. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə 1.265.959 manat və ya 22,5 faiz çox vəsait daxil olmuşdur. Mərkəzləşdirilmiş xərclərdən alınası dotasiya 84,6 faiz icra olunmuşdur. 2015-ci ildə yerli gəlirlər 90,5 faiz yerinə yetirilmiş, illik yerli xərclər 89,0 faiz icra olunmasına baxmayaraq yerli gəlir və xərclərdən maliyyələşən təşkilatlardan faktiki tələbat tam ödənilmişdir. İcra zamanı ilk növbədə əməkhaqqı və ona bərabər tutulan zəruri xərclərin ödənilməsinə üstünlük verilmişdir.

Rayon ərazisində 7 ədəd özəl bank filialı, 1 ədəd özəl bank şöbələri, 1 ədəd kredit ittifaqı və 4 ədəd bank olmayan kredit təşkilatı fəaliyyət göstərir.

Ötən il ərzində 131 sahibkarlıq subyektinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1.437.200 manat verilmiş kreditlər hesabına 2015-ci ildə 243 yeni iş yerləri açılmışdır .

Hesabat ilində rayon üzrə əsas kapitala yönəldilən investisiyaların miqdarı 39.300.000 manat, ümumi məhsul buraxılışı 160.055.000 manat olmuşdur.

Adambaşına düşən ümumi məhsulun həcmi 1.692 manat, orta aylıq əməkhaqqı 265 manat olmuşdur. Əhalinin pul gəlirlərinin artması hesabına rayonumuzun yaşayış məntəqələrində 188 fərdi yaşayış evləri tikilmişdir.

Rayonda “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri əvvəlki illərdə olduğu kimi 2015-ci ildə də uğurla davam etdirilmişdir.

Belə ki, Azadlıq küçəsində 1300 m2-a yaxın, Heydər Əliyev prospektində isə 1250 m2 tamet plitələr və 1200 p/m səki daşları qoyularaq 600 m2-dən çox qazon və güllüklər yaradılmışdır. Bakı-Tbilisi magistral avtomobil yolunun kənarında yerləşən 5 mərtəbəli yaşayış binasının fasad hissəsinə vurulmuş 1480 m2 penoplast üzlüklər sökülərək tikinti normalarına cavab verən materiallarla suvanmış və rənglənərək sakinlərin istifadəsinə verilmişdir. Şəhər ərazisində 9400 m2 divar və dam örtükləri, 420 m2 (84 ədəd) dəmir darvazalar, 7730 p/m beton bardürlər rənglənmişdir.

Qazax şəhərinin prospekt və küçələrində yeni işıqlandırma sistemlərinin quraşdırılması işləri davam etdirilir.

Heydər Əliyev Fondunun dəstəyi ilə müasir tələblərə cavab verən Tarix Diyarşünaslıq və Bayraq Muzeylərinin tikintisinə başlanılmışdır.

Heydər Əliyev prospekti, Azadlıq, F.Şamoyev, Bakı, Ə.Şıxlinski, M.P.Vaqif, S.Vurğun, Ə.Seyidov, M.Carçıyev, Ə.Dilbazi küçələrində və N.Nərimanov yaşayış massivində 6800 m2 asfalt örtüyü təmir edilmişdir. Bu istiqamətdə təmir-tikinti işləri davam etdirilir. Rayonun kənd yaşayış məntəqələrində 40 km-dən çox kənddaxili yollara qum-çınqıl döşənmişdir.

Respublika Prezidentinin Sərəncamına uyğun 2015-ci ildə qazıntısı nəzərdə tutulan 9 ədəd subartezian quyularının qazıntısı başa çatdırılmış, yaxın vaxtlarda istifadəyə veriləcəkdir. 2016-cı ildə 5 ədəd subartezian quyusunun qazılması işləri nəzərdə tutulmuşdur.

Ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş “Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 304 məcburi köçkün ailəsinə bütün infrastrukturlarla birlikdə yeni qəsəbənin tikintisi başa çatdırılmışdır.

Qızıl Hacılı kəndinin sakinləri üçün Nazirlər Kabinetinin 3 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə yaşayış evlərinin bütün infrastrukturlarla tikintisi məqsədilə sənədləşmə işləri aparılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə mərkəzi xəstəxananın yerində yeni 145 çarpaylıq Mərkəzi Xəstəxana Kompleksinin tikintisinə başlanılmışdır. Müvəqqəti olaraq işlər dayandırılmışdır. Yaxın vaxtlarda işlərə başlanılacaqdır.

Yaponiya Səfirliyinin dəstəyi ilə Daş Salahlı həkim məntəqəsinin tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ və şəhid ailələri üçün fərdi qaydada 13 yaşayış evinin tikintisi başa çatdırılmışdır. Həmin evlərdən 8-i istifadəyə verilmişdir.

Dövlət Proqramına uyğun olaraq Qazax şəhərində tikintisi nəzərdə tutulmuş 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi üçün layihə-smeta sənədləri hazırlanmış və baxılmaq üçün Fövqəladə Hallar Nazirliyinin Ekspertiza şöbəsinə göndərilmişdir. Qazax-Kosalar avtomobil yolunun tikinti işlərinə başlanılması nəzərdə tutulmuşdur.

Qazax Konserv zavodunda 2014-cü ildə tikintisi başlanılmış yeni kartof anbarında işlər tamamlanmışdır. Hər biri 480 m2 olmaqla 4 anbar və 504 m2-lik beşinci anbar sahələri uyğun olaraq avtomatik idarə olunan soyutma, havalandırma və isitmə sistemləri ilə təchiz edilmişdir. Son texnologiyalar əsasında tikilib istifadəyə hazır vəziyyətə gətirilmiş bu anbar 5500 ton təzə kartofun müasir üsullarla öz keyfiyyətinin qorunaraq saxlanmasına imkan verir.

İllik gücü 1 milyon ton, ərazisi 56 hektar olan Qazax Sement zavodunun birinci hissəsində tikinti işləri başa çatdırılmış, ikinci hissədə klinker istehsalı üzrə tikinti işləri davam etdirilir.

”Saloğlu” mebel firmasının ikinci hissəsi istifadəyə verilmiş və 153 nəfər işlə təmin olunmuşdur.

Hər birinin illik istehsal gücü 50 min ton olan ”Mətanət A” şirkəti tərəfindən Daş Salahlı kəndində və ”Carçıoğlu” şirkəti tərəfindən Xanlıqlar kəndində 2 yeni Əhəng zavodlarının tikintisinə başlanılmışdır. Həmin zavodlarda 300-ə yaxın yeni iş yerləri açılacaqdır.

Məzəm və Quşçu Ayrım kənd sakinlərinin rayon mərkəzinə təhlükəsiz gediş və gəlişini təmin etmək məqsədilə Qazax-Quşçu Ayrım avtomobil yolunun Alpout kəndi ilə Quşçu Ayrım kəndini birləşdirən hissəsində alternativ olaraq ikinci yolun çəkilişi işlərinə başlanılmışdır. Bu istiqamətdə işlər davam edir.

Bərpa Agentliyi tərəfindən Bala Cəfərli və Məzəm kəndlərində dinc əhalinin təhlükəsizliyinin təmin etmək məqsədilə 428 p/m istinad divarları inşa olunur.

Azərbaycan Kənd İnvestisiya layihəsi çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin regionların inkişaf proqramına əsasən Qazaxbəyli kəndində kənd qəbiristanlığında 8x4 ölçüdə talvarın quraşdırılması, 680 m uzunluğunda yeni hasarın çəkilməsi, 1 ədəd barmaqlıqdan darvazanın quraşdrılması işləri başa çatmışdır. Hazırda Qaymaqlı kəndində kənd qəbiristanlığında 8x4 ölçüdə talvarın quraşdırılması, 1000 m uzunluğunda yeni hasarın çəkilməsi, 1 ədəd barmaqlıqdan darvazanın quraşdırılması, yeni bulağın çəkilməsi, Daş Salahlı kəndində 4500 m uzunluğunda yeni su xəttinin çəkilməsi, 8 ədəd bulağın tikintisi başa çatdırılmışdır.

2015-ci ildə rayonumuzda olan 47.980 nəfər iqtisadi fəal əhalinin 47.170 nəfəri iqtisadiyyatda məşğul olanlardır.

Azərbaycan Respublikası “Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq rayonda yeni iş yerlərinin açılması ardıcıl olaraq davam edir. Belə ki, 2003-cü ildən bu günədək rayon üzrə 290 müəssisə yaradılmış 10.130 daimi olmaqla 12.498 yeni iş yeri, 2015-ci ildə rayonda 17 yeni müəssisə yaradılaraq 493-ü daimi olmaqla 753 yeni iş yeri açılmışdır. 2015-ci il ərzində 146 dövlət və qeyri-dövlət müəssisələrindən 272 boş iş yeri təqdim edilmiş, 464 nəfər Qazax rayon Məşğulluq Mərkəzinə müraciət etmiş vətəndaşlardan 322 nəfər iş axtaran kimi qeydiyyata alınmış və 206 nəfər münasib işlə təmin olunmuşdur. Qazax rayon Məşğulluq Mərkəzi 2016-cı ildə rayonda fəaliyyət göstərən idarə, müəssisə, təşkilat rəhbərləri ilə daha sıx əlaqə yaratmalı və müraciət etmiş vətəndaşları vaxtında qeydiyyata almaqla işlə təmin olmalarına lazımi köməklik göstərməlidir.

Son illərdə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə əlaqədar qəbul edilmiş Sərəncam və Qərarların icrasının nəticəsidir ki, 2015-ci ildə biçilmiş 6.040 hektar sahədən 18.217 ton taxıl istehsal olunmuşdur. Orta hesabla hər hektardan məhsuldarlıq 4,6 sentner artırılaraq 30,2 sentnerə çatdırılmışdır. Mövcud şum traktorlarından və digər kənd təsərrüfatı texnikalarından səmərəli istifadə olunaraq kifayət qədər şum qaldırılmışdır. Bunun nəticəsidir ki, 2016-cı ilin məhsulu üçün 7.761 hektarda payızlıq taxıl səpilmişdir. Bunun 5.647 hektarı buğdadır. Bununla yanaşı meyvə istehsalı 99 ton artırılaraq 14.284 tona, üzüm istehsalı 208 ton artırılaraq 3.822 tona, kartof istehsalı isə 2.460 ton artırılaraq 6.020 tona çatdırılmışdır.

Ölkə Prezidentinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 23 yanvar 2007-ci il tarixli sərəncamına uyğun olaraq 2015-ci ilin iyun ayında 4.693 nəfər istehsalçının becərdiyi 12.738 hektar sahə üçün 636.905 manat yanacaq və motor yağına görə yardım hesablanaraq verilmişdir. İl ərzində istehsalçılara güzəştli qiymətlə 242 ton azot kübrəsi satılmışdır. Kənd təsərrüfatı bitkilərindən yüksək məhsul alınması üçün əsas amillərdən biri bitkilərin vaxtında və kifayət qədər suvarma suyu ilə təmin olunmasıdır.

Suvarma Sistemləri idarəsi tərəfindən 2015-ci vegetasiya ilində ayrıcılardan təsərrüfatlara 63,1 milyon kub metr əvəzinə 45,8 milyon kub metr su verilmişdir. Bununla artan yekunla 28.536 min hektar əkin sahəsi suvarılmışdır ki, bu da nəzərdə tutulandan az olmuşdur. Bunun səbəbi isə aprel-may aylarında hava şəraitinin yağmurlu keçməsi ilə əlaqədar vətəndaşların suvarma suyundan imtina etmələri olmuşdur. Qazax Suvarma Sistemləri idarəsi tərəfindən 2015-ci ildə 795 min kub metr arxlarda lildən təmizlənmə işləri aparılmışdır. Bundan 305.000 kub metri Qazax Melioservis idarəsi tərəfindən aparılmışdır. Örtülü suvarma şəbəkələrində Dövlət Proqramına uyğun olaraq bərpa və yenidənqurma işləri davam etdirilir.

2015-ci ilin yazında və payızında rayon ərazisində 377.500 ədəd müxtəlif növ ağaclar əkilmiş, bunun da 50.000 ədədi magistral yol kənarlarına, şəhər və kənd daxilinə, 272.500 ədədi isə Meşə Mühafizəsi və Bərpası Müəssisəsi tərəfindən əkilmişdir. Əkilmiş ağaclara aqrotexniki xidmət işləri davam etdirilir.

Rayonun Qaymaqlı kəndində yeni yaradılmış fermaya lizinq yolu ilə Almaniyadan ”Holstein-Friesian” (holstein frezian) cinsindən olan 75 baş düyə gətirilmiş, həmin düyələrdən 76 baş buzov alınmışdır. Buzovlar sağlam vəziyyətdə yaşayırlar.

Orta Salahlı kəndində 30 min başlıq quşçuluq sexlərinin tikintisi başa çatdırılmış, istehsal və kəsim sexlərinin, həmçinin saxlama kamerasının tikinti işləri davam edir. 50 nəfər üçün daimi iş yerlərinin açılması nəzərdə tutulur.

2015-ci ildə 434 baş iribuynuzlu heyvan süni yolla mayalandırılmış, əvvəlki ildə mayalandırılmış heyvanlardan 354 baş bala əldə edilmişdir. Kəndlərdə heyvandarlıq sahəsində bu işlərin genişləndirilməsi ləng gedir. Odur ki, aidiyyəti idarələr, rayon İcra Hakimiyyəti Başçısının inzibati ərazi dairəsi üzrə nümayəndələri və bələdiyyə sədrləri bu işin məsuliyyətini dərk edərək tam ciddiliyi ilə müvafiq tədbirlər keçirilməsini təmin etməlidirlər.

Heyvandarlıq sahəsində zoobaytar tədbirlərin planlı surətdə həyata keçirilməsinin nəticəsidir ki, məhsul istehsalı artmaqdadır. Belə ki, 2015-ci ildə ötən ilə nisbətən 1.007 ton artıq süd istehsal olunaraq 30.000 tona, 249 ton (diri çəkidə) artıq ət istehsal olunaraq 5.501 tona və 301.000 ədəd çox yumurta alınaraq 11.200.000 min ədədə, iribuynuzlu mal-qaranın baş sayı 207 baş artaraq 30.189 başa çatdırılmışdır.

Dövlət Sosial Müdafiəsi Fondunun rayon şöbəsi tərəfindən əhalinin pensiya və müavinətlərinin ödənilməsi üçün 2015-ci ildə ödəniş müəssisələrinə 27.955.000 manat vəsait köçürülmüşdür. Bu keçən ilin müvafiq dövrünə nisbətən 143.000 manat çoxdur. 2015-ci ildə şöbədə sosial sığorta haqları üzrə yığım proqnozu 82,4 faiz yerinə yetirilmişdir. Toplanmış vəsait 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 12.000 manat artıq olmuşdur. Hazırda 13.954 nəfər pensiyaçılardan hamısı öz pensiyalarını plastik kartlarla bankomatlar vasitəsilə alırlar. Pensiya və müavinətlərin ödənilməsində gecikmə hallarına yol verilməmişdir.

2015-ci ildə Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 7.664.228 manat aylıq müavinət və birdəfəlik müavinət təyin edilmiş və ödənilmişdir. Bu rəqəm 2014-cü illə müqayisədə 3.106.700 manat çoxdur. 2015-ci ildə 2.026 ailəyə 2.947.203 manat ünvanlı sosial yardım təyin edilib ödənilmişdir. Möhtərəm Prezident İlham Əliyevin 19 yanvar 2016-cı il tarixli Fərmanına əsasən 2016-ci ilin 01 fevral tarixindən pensiya və müavinətlərin məbləği artırılmışdır.

Hesabat ili ərzində əhaliyə göstərilən ticarət, nəqliyyat, rabitə və məişət xidməti sahələrində də bir sıra işlər görülmüşdür.

Qazax Telekommunikasiya Qovşağı cari ildə planı 100 faiz yerinə yetirmiş və ötən müddət ərzində 53 ədəd yeni telefon xətti çəkilərək vətəndaşların istifadəsinə verilmişdir. Lakin vətəndaşların çoxsaylı müraciətlərini nəzərə alaraq yeni nömrələrin alınması və internet xətlərinin sürətlərinin nizamlanması məqsədilə Telekommunikasiya qovşağının rəhbərliyi bu sahəyə diqqəti artırmalı və yuxarı təşkilatlar qarşısında məsələ qaldırmalıdır.

Qazax Poçt filialı 2015-ci il ərzində planı 101 % yerinə yetirərək əhalidən elektrik enerjisi, təbii qaz, su, telefon, vergi və sair pulları qəbul edib aidiyyəti təşkilatların bank hesablarına köçürmüşdür. Filial tərəfindən müxtəlif ünvanlara 1.206 məktub və 516 ədəd bağlama göndərilmiş, 5.364 məktub və 2.017 bağlama qəbul edilmişdir.

“Qazax-Avtovağzal” ATSC tərəfindən 2015-ci ildə 306.100 sərnişinə xidmət göstərilərək plan 103 faiz yerinə yetirilmişdir.

2015-ci ildə rayonun kəndlərinə işləyən marşurut avtobusları Avtovağzala toplanaraq, oradan hərəkətə başladıqlarından mərkəzi bazarın qarşısında yaranan tıxaclar seyrəlmişdir.

27 saylı Yol İstismar İdarəsi 58 km respublika əhəmiyyətli, 134 km yerli əhəmiyyətli avtomobil yollarına və uzunluğu 914 p/m olan 23 ədəd körpülərə xidmət edir. 2015-ci ildə 355,6 min manat dəyərində yolların saxlanılması məqsədilə təmir və sair işlər görülmüşdür.

Qazax Mənzil İstismar Sahəsinin balansında olan 7 yaşayış binasının dam örtüyündə əsaslı, 12 binanın dam örtüyündə və 21 binanın kanalizasiya sistemində cari təmir işləri aparılmışdır. 2015-ci il ərzində vətəndaşlardan yığılan mənzil xidmət haqqı 101,3 faiz olmuşdur.

Qazax Kommunal Müəssisələri Kombinatı əsasən şəhərin təmizliyi və yaşıllaşdırılması işi ilə məşğul olur. 2015-ci ildə kombinata 212.037 manat vəsait daxil olmuşdur. Göstərilən diqqət və qayğının nəticəsi olaraq Kommunal Müəssisələri Kombinatı öz işlərini daha da yaxşılaşdırmalı və təmizlik işlərini gücləndirməlidir.

Hesabat ilində əhalinin elektrik enerjisi, təbii qaz, içməli su ilə təminatının yaxşılaşdırılması sahəsində də məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Elektrik Şəbəkəsi tərəfindən 2015-ci il ərzində cəmi pul yığımı 4.724.000 manat yerinə yetirilmişdir. Ümumi yığım 97,0 faiz, o cümlədən yerli əhali üzrə 99,1 faiz olmuşdur. 2014 və 2015-ci illərin göstəricilərini müqayisə edərkən cəmi pul yığımında 308.100 manat, o cümlədən yerli əhali sektorunda 136.400 manat artım olmuşdur. Bildiyiniz kimi, Dövlət Proqramında Qazax şəhərinin elektrik daşıyıcılarının SİP kabellə əvəz olunması işlərinə başlanılmışdır. Hazırda Qazax şəhərində Birinci Şıxlı və Xanlıqlar kəndlərində istismar vaxtı keçmiş, dəfələrlə təmir olunmuş transformatorların əvəzinə 22 ədəd yeni müasir tipli qapalı TM-ri ayrılmışdır. Həmin transformatorlardan 10 ədədi sxemaya qoşulmuş, onlardan qidalanacaq 0,4 kv-luq xətlərdə 16,6 km uzunluğunda Sipləşmə (Kabelləşmə) işləri aparılmış, 462 ədəd yeni metal dayaqlar quraşdırılmış, 823 ədəd evə giriş xətləri çəkilmiş və müasir tipli elektron sayğaclar quraşdırılmışdır.

2015-ci il ərzində Qazax rayon Qaz İstismar Sahəsi tərəfindən əhali abonentlərə satılmış təbii qazın yığım faizi 93,8 faiz olmuşdur. 3.291.001 manat vəsairt toplanmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 93.838 manat çoxdur. Rayon üzrə qazlaşma 100 faiz başa çatdırılmışdır. Ümumillikdə 2015-ci ildə 173 nəfər yeni abonent təbii qazla təmin edilmişdir.

Qazax Su-Kanal idarəsi tərəfindən 2015-ci il ərzində 69 abonentə yeni su xətti çəkilmiş, 5.927 abonentə xidmət göstərilmiş və 450.188 manat vəsait toplanmışdır. Bu da satışın 98,9 faizini təşkil edir. 2014-cü illə müqayisədə 10.069 manat çox vəsait toplanmışdır.

Su Quyularının İstismarı İdarəsinin Qazax İstismar sahəsinin balansında 137 ədəd subartezian quyusu vardır. 94 ədəd subartezian quyusunda cari təmir işləri aparılmışdır.

Qazax şəhərinin su təchizatının və kanalizasiya sisteminin yenidən qurulması məqsədi ilə torpaqayırma və layihə sənədləri hazırlanmış, yaxın vaxtlarda tikinti işlərinə başlanılması nəzərdə tutulur.

**(Davamı səh.3-də)**

# 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair Qazax rayonu İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun HESABAT MƏRUZƏSİ



(Əvvəli səh.2-də)

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, 6 ümumi orta, 7 ibtidai məktəbdə 11.439 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1.743 nəfər müəllim məşğul olmuşdur. 2015-ci ildə 831 nəfər XI sinif məzunlarından 520 nəfəri TQDK-ya sənət vermiş onlardan 290 nəfəri ali məktəblərə, 55 nəfəri isə orta ixtisas məktəblərinə daxil olmuşlar. Qəbul olmuş məzunlardan 59 nəfəri 500-dən, 20 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Hüseynbəyli kənd tam orta məktəbinin 1 nəfər məzunu qızıl medal almış və Azərbaycan Tibb Universitetinə qəbul olmuşdur. Məzunlardan 19 nəfəri respublikanın Ali Hərbi və xüsusi təyinatlı təhsil müəssisələrinə daxil olmuşdur.

Ötən müddət ərzində təhsil sisteminin informasiyalaşdırılması sahəsində də müəyyən işlər görülmüşdür. Dövlət Proqramının icrası nəticəsində hazırda hər 20 şagirdə bir kompyuter düşür. Rayonun 26 məktəbi internet şəbəkəsinə qoşulmuşdur.

Ölkə Prezidenti İlham Əliyev cənablarının təşəbbüsü ilə reallaşan "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində rayon İcra Hakimiyyətinin dəstəyi ilə 2015-ci ilin mart ayında 10 nəfər məktəblinin Naxçıvan bölgəsinə, noyabr ayında isə 35 nəfərin Lənkəran-Lerik-Astara bölgəsinə ekskursiyası təşkil olunmuşdur.

Şagirdlərin məktəbə davamiyyətini öyrənmək məqsədilə vaxtaşırı reydlər keçirilmişdir.

5 oktyabr - Müəllimlər Günü münasibətilə Ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə Daş Salahlı kənd 1 saylı tam orta məktəbin xarici dil müəllimi S.Xəlilova "Tərəqqi medalı" ilə təltif olunmuş və 2015-ci ildə Respublika üzrə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olaraq 5000 manat pul mükafatı almışdır.

Qazax RMX-nın nəzdində 135 çarpaylıq şəhər xəstəxanası, 30 çarpaylıq Doğum evi, 30 çarpaylıq Uşaq Xəstəxanası, 1 Təcili Yardım stansiyası, 3 poliklinika, 100 çarpaylıq Ruhi Xəstəxana, 2 kənd xəstəxanası, 16 həkim məntəqəsi, 17 tibb məntəqəsi və Müalicə Diaqnostika Mərkəzi fəaliyyət göstərir. 2015-ci ildə Azərbaycan Respublikaı Prezidentinin tapşırıq və tövsiyəsi əsasında rayon əhalisi kütləvi olaraq tibbi müayinələrə cəlb olunmuş, müayinə nəticəsində 3.269 nəfər ambulator, 427 nəfərə stasionar müalicə kursu təyin olunmuş, 59 nəfər isə Bakı şəhərinə müalicəyə göndərilmişdir. Həmçinin rayonda keçirilmiş qanvermə aksiyasında 70 litr qan tədarük olunaraq Mərkəzi Qan Bankına göndərilmişdir.

Rayon Mədəniyyət və Turizm şöbəsi tərəfindən 2015-ci ildə 56 mədəni-kütləvi tədbir, bayram konsertləri, şənliklər, yubileylər, sərgilər, əlamətdar günlər və müsabiqələr keçirilmişdir.

Qazax rayonu ərazisində dövlət mühafizəsinə götürülmüş abidələrin 2001-ci ildə təsdiq olunmuş siyahısında 112 daşınmaz tarix və mədəniyyət abidələri vardır. Bunlardan 45-i memarlıq, 54-ü arxeoloji, 7-si monumental və xatirə, 5-i isə dekorativ tətbiqi sənəd nümunələridir.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2015-ci ilin 16-21 dekabr tarixində Şəki şəhərində Prezident Kuboku uğrunda X çövkən milli oyunları keçirilmişdir. Tədbirdə 21 rayon Mədəniyyət və Turizm şöbələrinin çövkən oyunu üzrə nümayəndə heyətləri iştirak etmişlər. Keçirilmiş oyunlarda Qazax rayon Mədəniyyət və Turizm şöbəsinin nümayəndə heyəti "Baharbənd" milli oyununda birinci yeri tutduğuna görə Diplomla təltif olunmuşdur.

2015-ci ildə Qazax rayon Mədəniyyət və Turizm şöbəsinin işi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yüksək qiymətləndirilərək şöbənin məsləhətçisi N.Əliyeva, Mərkəzi Kitabxananın direktoru S.Babanlı və Çaylı kənd mədəniyyət evinin direktoru M.Məşədiyev mədəniyyət sahəsindəki uzun müddətli, səmərəli fəaliyyətlərinə görə "Fəxri Mədəniyyət İşçisi" döş nişanına layiq görülmüşlər.

Qazax rayon Gənclər və İdman idarəsi tərəfindən Azərbaycan Respublikası Prezidentinin "Dövlət Gənclər siyasəti haqqında" Qanununun və "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı"nın icrası ilə əlaqədar 2015-ci ildə gənclərlə iş sahəsi üzrə 17, bədən tərbiyəsi və idman sahəsi üzrə 33 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 5.432 nəfər yeniyetmə və gənc iştirak etmişdir.

2015-ci il ərzində beynəlxalq yarışlarda idmançılarımız 18, respublika yarışlarında isə 65 dəfə mükafata layiq yerlər tutmuşlar. İdmançılarımızdan Qismət Vəkilov, İsrafil Məmmədov, Tapdıq Pənahzadə, Mahir Əmiraslanov, Nemət Vəkilov, Sona Məmmədova, Günel Əlizadə, Həsən Həsənov, Elşən Eyyubov, Ceyhun Məmmədli, Fərid Məmmədov, Əsgər Məmmədəliyev və Elnarə Abbasova daha yaxşı nəticələr göstərmişlər.

Rayonda 7 siyasi partiya, 23 ictimai birlik və 4 dini icma fəaliyyət göstərir. Yeni Azərbaycan Partiyasının 7560 nəfər, digər partiyaların isə cəmi 390 nəfər üzvü vardır. Fəaliyyət göstərən ictimai siyasi birliklər, dini icmalar KİV-lər haqqında məlumat bazasının təkmilləşdirilməsi, toplanmış materialların təhlili istiqamətində xeyli işlər görülmüşdür. Hesabat ilində "Göyəzən" rayon qəzeti redaksiyası tərəfindən görülmüş işlərin vəziyyəti qənaətbəxş olmuşdur.

2015-ci ildə gənclərin ordu sıralarına çağırışı və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2015-ci ildə imzaladığı Fərmanlara müvafiq olaraq Azərbaycan Respublikasında vətəndaşların müddətli həqiq hərbi xidmətə çağırışı ilə əlaqədar Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax rayon şöbəsi tərəfindən çağırışçıların təyin olunduqları hərbi hissələrə göndərilməsi tam mütəşəkkil və vaxtında təmin edilmişdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Yardım Fonduna vəsaitlərin toplanması ilə bağlı aparılmış məqsədyönlü işlərin nəticəsidir ki, 2015-ci ildə ümumilikdə 25811,31 manat vəsait köçürülmüşdür.

Əvvəlki illərdə olduğu kimi 2015-ci ildə də yerli İcra Hakimiyyəti orqanlarının hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyəti təmin edilmişdir. Hesabat ilində rayonda mövcud olan kriminogen vəziyyətin təhlili və qanun pozuntularına qarşı aparılan mübarizə tədbirlərinə dair rayonun hüquq-mühafizə orqanları tərəfindən görülmüş işlər qanunun aliliyini, insan hüquqları və azadlıqlarının etibarlı müdafiəsini, cinayətkarlığa qarşı barışmaz mübarizəni təmin etmək zəruri tədbirlərdən biri kimi hesab edilir. Qazax rayonu ərazisində 2015-ci ildə 239 cinayət hadisəsi baş vermişdir. Qeydə alınmış cinayətlərin 91,2 faizinin açılması təmin olunmuş, 26 cinayət işi bağlı qalmışdır. 2015-ci ildə istintaq və məhkəmə orqanlarından yayınan 28 nəfər şəxs axtarışda olmuş, keçirilmiş tədbirlər nəticəsində onlardan 23-ü tutularaq aidiyyəti orqanlara təhvil verilmişdir. Hesabat dövrü ərzində 12 narkotik faktı həyata keçirilmiş tədbirlər nəticəsində aşkar edilmiş, 1 kq 89 qram narkotik vasitə dövriyyədən çıxarılmışdır.

2015-ci ildə Azərbaycan Respublikası Ərazilərinin Minalardan təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) tərəfindən 92 ədəd müxtəlif növ hərbi sursatlar zərərsizləşdirilmişdir.

Şəhərin və rayonun kəndlərinin sosial-iqtisadi inkişafında, abadlıq-quruculuq işlərində və yerli əhəmiyyətli məsələlərin həllində bələdiyyələrin və yerli İcra Hakimiyyəti orqanlarının Əlaqələndirmə Şurasının fəaliyyətində müsbət dönüş yaradılmışdır. Bələdiyyə torpaqlarından və onların mülkiyyətində olan əmlaklardan qanunvericiliyə uyğun olaraq istifadə olunmasına müntəzəm nəzarət olunur. Bu barədə müvafiq məlumatlar müəyyən edilmiş qrafikə uyğun olaraq RİAİS-ə ötürülür.

Qazax rayonunun ümumi istifadəsində olan 69.229 hektar torpaq sahəsinin 15.402 hektar dövlət mülkiyyətində saxlanılmış, 29.353 hektarı bələdiyyə mülkiyyıtində, qalan 24.474 hektarı isə xüsusi mülkiyyətə verilmişdir.

2015-ci ildə rayon İcra Hakimiyyətinə 877 müraciət daxil olmuşdur. Müraciətlərdən 299-u Prezident Administrasiyasına, 19-u Milli Məclisə, 17-i Nazirlər Kabinetinə, 54-ü respublikanın digər təşkilatlarına, 423-ü isə bilavasitə İcra Hakimiyyətinə ünvanlanan müraciətlərdir.

Rayon İcra Hakimiyyətində vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemi cari ilin may ayında yaradılmış və il ərzində icra hakimiyyətinə daxil olmuş 877 müraciət elektron informasiya sisteminə daxil edilmişdir.

2015-ci ildə rayon İcra Hakimiyyəti Başçısının Aparatına daxil olan müraciətlərin təhlili göstərir ki, müraciətlərin 43,3 faizi mərkəzi orqanlardan, 56,7 faizi isə vətəndaşlar tərəfindən daxil olmuşdur. Daxil olan müraciətlərin 17,5 faizi müsbət həll olunmuş, 4,1 faizi qismən həll olunmuş, 1,2 faizi əsassız sayılmış, 77,0 faizinə müvafiq izahat verilmiş, 0,2 faizi aidiyyəti üzrə göndərilmişdir. RİHB yanında şuranın 32 şura iclası keçirilmiş, 32 məsələ müzakirə olunmuşdur.

Bildiyiniz kimi, 01 noyabr 2015-ci il tarixdə ölkəmizdə beşinci çağırış Milli Məclisə seçkilər keçirilmişdir. 107 Qazax DSK və 106 Tovuz-Qazax-Ağstafa DSK-ları nəzdində 45 seçki məntəqəsi mövcud olmuşdur. Rayon üzrə ümumilikdə 59.199 nəfər seçici vardır. 107 saylı Qazax DSK nəzdindəki 38 seçki məntəqəsi üzrə seçicilərin sayı 45.491 nəfər olmuş, ilk dəfə səs verən seçicilərin sayı isə 488 nəfər təşkil etmişdir. 107 saylı Qazax DSK-da öz hesabına namizədin təyinatı əsasında və siyasi partiyaları təmsil edən cəmi 614 nəfər müşahidəçi qeydiyyatdan keçmişdir.

10 seçki məntəqəsində VEB kamera quraşdırılmışdır. 01 noyabr 2015-ci il tarixdə keçirilmiş seçkilərdə 107 saylı Qazax DSK-da 6 nəfər qeydə alınmış namizəd iştirak etmiş, 45.491 nəfər seçicidən 23.840 nəfəri seçkilərdə iştirak etmiş və bu səslərdən 14.881 seçicinin səsini qazanmış Nəbizadə Kamran Telman oğlu səsvermədə iştirak edən seçicilərin 62,42 faiz səs çoxluğu ilə Milli Məclisə Deputat seçilmişdir. Səsvermənin hazırlanması və keçirilməsi prosesi yüksək səviyyədə təşkil olunmuş və heç bir qanun pozuntusuna yol verilməmişdir. 2015-ci ildə təsdiq edilmiş qrafik üzrə rayon İcra Hakimiyyəti Başçısının qəbulunda 337 nəfər və 50 səyyar görüşlər zamanı keçirilən qəbullarda 28.065 nəfər rayon sakini iştirak etmişdir. Qəbullar rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin, rayon İcra Hakimiyyəti Başçısının inzibati ərazi dairələri üzrə nümayəndələrinin və bələdiyyə sədrlərinin iştirakı ilə təşkil olunur. Rayon mərkəzində və kəndlərdə keçirilən səyyar qəbullarda 546 nəfər müraciət etmiş, 366 təklif irəli sürülmüş, 180 məsələ həllini tapıb, 167 nəfərin müraciəti əsasında aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmış, 19 nəfərin müraciəti əsasında isə müvafiq işlər aparılır.

2016-cı ilin yanvar ayından başlayaraq rayon İcra Hakimiyyəti Başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində hesabat seçki yığıncaqları keçirilmişdir. Hesabatlar şəhər və kənd sakinlərinin yüksək fəallığı ilə keçirilmiş, yığıncaqlarda söylənilmiş təkliflər ümumiləşdirilərək rayon İcra Hakimiyyətinin müvafiq şöbəsinə təqdim olunmuşdur. Təkliflər əsasən yeni uşaq bağçaları və körpələr evinin, həkim məntəqələrinin tikilməsi, kəndarası yolların təmir edilməsi, içməli və suvarma suyu ilə təmin olunmaları, Kür çayı sahili boyunca sahilbərkitmə işlərinin davam etdirilməsi, məcburi köçkünlərin və imtiyazlı ailələrin yaşayış şəraitinin yaxşılaşdırılması üçün yeni yaşayış binalarının tikilməsi və kəndlərdə yeni artezian quyularının qazılmasına dair olmuşdur.

Hesabat ili ərzində rayon İcra Hakimiyyəti Başçısı tərəfindən həvalə olunmuş vəzifəni lazımi şəkildə yerinə yetirmədiyinə görə 1 nəfərə töhmət verilmişdir.

Hesabat ilində rayon İcra Hakimiyyəti Başçısı Aparatında və inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində dövlət idarəçiliyinin müasir stil və metodlarından istifadə olunmuş, Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə və "Dövlət Qulluğu haqqında" Qanununa uyğun olaraq işlər yerinə yetirilmişdir.

2016-cı ildə qarşımızda bir çox vəzifələr durur. Belə ki, rayonun sosisal-iqtisadi inkişafı sahəsində müxtəlif tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- Üçüncü Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının təmin edilməsi;
- Kosalar avtomobil yolunun asfaltlaşması;
- Rayonda tikintisinə, təmir və bərpa-gücləndirmə işlərinə ehtiyacı olan yeni məktəblərin tikintisi və təmiri;
- Yeni körpələr evi-uşaq bağçasının tikintisi;
- Qəzalı vəziyyətdə olan çoxmənzilli kommunal yaşayış binalarının sakinləri üçün yeni yaşayış binalarının tikintisi;
- Məcburi köçkün və imtiyazlı ailələr üçün yeni yaşayış binalarının tikintisinin davam etdirilməsi;
- Beynəlxalq avtomobil yolunun hər iki tərəfində, eləcə də şəhərin küçələri boyunca geniş abadlıq işlərinin aparılmasının sürətləndirilməsi;
- Magistral avtomobil yollarının kənarında və rayonun digər ərazilərində ağac əkilməsi işlərinin davam etdirilməsi;
- Qazax şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması üçün tikinti işlərinə başlanılması;
- Qazax şəhərində elektrik verilişi xətlərinin SİP kabellə dəyişdirilməsi işlərinin davam etdirilməsi;
- Yeni artezian quyularının qazılması və sairə;

Yekunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarını əmin etmək istəyirik ki, 2016-cı ildə qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün bütün qüvvəmizi səfərbər edərək daha uğurlu nəticələr əldə edəcəyik və Dövlət Başçısının Qazax rayonuna göstərdiyi diqqət və qayğıya əməli işimizlə cavab verəcəyik.

# YAP Qazax rayon Təşkilatının 2015-ci ilin yekunları ilə bağlı hesabat yığıncağı keçirilmişdir

**Yeni Azərbaycan Partiyası (YAP) Qazax rayon Təşkilatının inzibatı binasında rayon Partiya Təşkilatının 2015-ci il ərzində fəaliyyətinə dair hesabat yığıncağı keçirilmişdir.**

Yığıncaqdan əvvəl tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq onun əziz xatirəsini ehtiramla yad etmişlər.

YAP Qazax rayon Təşkilatının sədri Həmid Pənahov məruzə ilə çıxış edərək 2015-ci ildə rayon partiya təşkilatının fəaliyyətindən danışmışdır. Qeyd etmişdir ki, ötən il dövlət başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı təmin edilib, Azərbaycanın həyatında böyük uğurlar əldə edilib, mühüm siyasi hadisə olan Milli Məclisə seçkilər keçirilib. Əldə olunan uğurların qazanılmasında ölkəmizin aparıcı partiyası olan YAP da mühüm rol oynayıb. YAP Qazax rayon Təşkilatının 75 ərazi ilk partiya təşkilatı və 7560 nəfər partiya üzvü olduğu, onlardan 4641 nəfərini qadınlar, 2344 nəfərini gənclər təşkil etdiyi bildirilmişdir. 2015-ci il ərzində YAP Qazax rayon Təşkilatında 458 nəfər partiya sıralarına qəbul olunmuşdur ki, bunun da 360 nəfəri yəni 78,6 %-i gənclərdir. Daha sonra rayon Partiya Təşkilatının sədri 2016-cı ildə qarşıda duran vəzifələrdən danışıb, təşkilatın fəaliyyətinə göstərilən hərtərəfli dəstəyə görə Qazax rayonu İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərova təşəkkürünü bildirib.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. YAP Gənclər Birliyi Qazax rayon Təşkilatının sədri, İdarə Heyətinin üzvü Vüsal İsmayılov, Qadınlar Şurasının sədri Asya Alhüseynova, İdarə Heyətinin üzvü Novruz Abdullayev, Azərbaycan Dövlət Pedaqoji Universiteti Qazax filialı ərazi ilk partiya təşkilatının sədr müavini Məmməd Yusifov çıxış edərək 2015-ci ildə görülən işlərdən, həyata keçirilən tədbirlərdən, qazanılan uğurlardan danışmışlar.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı, YAP Qazax rayon Təşkilatı İdarə heyətinin üzvü Ayaz Əsgərov çıxış edərək əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının günümüzün aparıcı təşkilatı, siyasi qüvvəsi olduğunu qeyd etmiş, ölkə başçısı İlham Əliyevin respublikada apardığı məqsədyönlü siyasətdən danışmışdır. A.Əsgərov son vaxtlar Qazax rayonunda mühüm işlər görüldüyünü xatırladaraq YAP Qazax rayon təşkilatının rayonumuzda aparılan bütün ictimai-siyasi proseslərdə fəal olduğunu, 2015-ci ildə rayon təşkilatı işlərini günün tələbləri səviyyəsində qurduğunu bildirmiş və yeni hesabat ilində rayon partiya təşkilatına uğurlar arzulamışdır.

Sonda YAP Qazax rayon Təşkilatının 2016-cı il üçün fəaliyyət proqramı və maliyyə xərcləri təsdiq edilmişdir.

**Xuraman ƏZİMOVA**

## 2015-ci il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Əsgərov Ayaz Nəriman oğlu | rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu<br>Alıyev Məmməd Oruc oğlu<br>Həsənov Mehdi Alı oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br>Memarlıq və tikinti şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |

***Qeyd:***

**1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :**
**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

## Qazax rayon prokurorluğu əməkdaşları tərəfindən 2016-cı ilin 1-ci yarısında vətəndaşların yerlərdə qəbuluna dair QRAFİK

| S/№ | Qəbul aparılan şəhər və kəndlərin adı | Qəbul edən şəxs | Qəbul aparılan gün, ay və saat |
|---|---|---|---|
| 1 | Qazax şəhəri | Prokuror Əlirza Babayev | 21 yanvar, 10:00 |
| 2 | N.Nərimanov qəsəbəsi | Prokuror müavini Rəfael Həsənov | 27 yanvar, 10:00 |
| 3 | Yuxarı Əskipara kəndi | Prokuror köməkçisi Nəriman Əsədov | 10 fevral, 10:00 |
| 4 | Aşağı Əskipara kəndi | Prokuror Əlirza Babayev | 24 fevral, 10:00 |
| 5 | Barxudarlı və Sofulu kəndləri | Prokuror müavini Rəfael Həsənov | 9 mart, 10:00 |
| 6 | Bağanıs Ayrım və Xeyrımlı kəndləri | Prokuror köməkçisi Nəriman Əsədov | 16 mart, 10:00 |
| 7 | Hüseynbəyli və Canalı kəndləri | Prokuror Əlirza Babayev | 6 aprel, 10:00 |
| 8 | Birinci Şıxlı kəndi | Prokuror müavini Rəfael Həsənov | 20 aprel, 10:00 |
| 9 | İkinci Şıxlı kəndi | Prokuror köməkçisi Nəriman Əsədov | 27 aprel, 10:00 |
| 10 | Aslanbəyli kəndi | Prokuror Əlirza Babayev | 4 may, 10:00 |
| 11 | Qaymaqlı kəndi | Prokuror müavini Rəfael Həsənov | 18 may, 10:00 |
| 12 | Kəmərli kəndi | Prokuror köməkçisi Nəriman Əsədov | 25 may, 10:00 |
| 13 | Fərəhli və Qızıl Hacılı kəndləri | Prokuror Əlirza Babayev | 8 iyun, 10:00 |
| 14 | Məzəm kəndi | Prokuror müavini Rəfael Həsənov | 15 iyun, 10:00 |
| 15 | Cəfərli və Bala Cəfərli kəndləri | Prokuror köməkçisi Nəriman Əsədov | 22 iyun, 10:00 |

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan müəllimi öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir.**

Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilmişdir. Bu proses təkcə paytaxt ilə məhdudlaşmır, bölgələri də əhatə edir. Təsadüfi deyil ki, son bir neçə ildə - XXI əsr Azərbaycanında təhsil sürətlə inkişaf etmişdir. Ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəblər tikilmiş, bir çox məktəblər üçün yeni binalar inşa olunmuşdur.

Bu gün Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən hər islahat, baş verən hər bir hadisə ilk növbədə Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmışdır. Azərbaycanda təhsilə diqqət və qayğı hələ ötən əsrin 60-cı illərindən başlamışdır. Ulu öndər Heydər Əliyev 1969-cu ilin yayından başlayaraq Azərbaycanda təhsil müəssisələrinin yeniləşdirilməsinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsilin keyfiyyətinə şəxsən özü nəzarət etmişdir.

Azərbaycan xalqı xoşbəxtdir ki, bu gün Prezident İlham Əliyev ümummilli liderin həyata keçirdiyi həmin siyasəti uğurla dəstəkləyir. Müəllimlərin fəaliyyətinin stimullaşdırılması istiqamətində də Heydər Əliyev ənənələri uğurla davam etdirilir. Həm onların peşə bayramları günündə, həm də yeni dərs ilinin başlanması münasibətilə müəllimlər dövlətin yüksək qayğısını görürlər.

Ölkə Başçısının bu diqqət və qayğısı ilə əhatə olunmaq xoşbəxtliyi mənə də nəsib olub. 5 oktyabr 2015-ci ildə Müəllimlər Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşəm. Bu təkcə mənim uğurum deyil, eyni zamanda Qazax təhsilinə göstərilən diqqət və qayğı, rayon müəllimlərinə verilən yüksək qiymətdir.

Son zamanlar Prezident İlham Əliyevin ölkə təhsilinin inkişafı üçün imzaladığı sərəncamlardan biri də "Ən yaxşı müəllim" müsabiqəsinin keçirilməsi və qaliblərin yüksək səviyyədə mükafatlandırılmasıdır. Uğur qazandığım nailiyyətlərimdən biri də odur ki, mən bu müsabiqənin 2 dəfə - 2009-2010 və 2014-2015-ci tədris illərində keçirilmiş "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşam.



Lakin qazandığım uğurlarla heç vaxt kifayətlənməmişəm, daim öz üzərimdə çalışmışam, axtarışlar aparmışam. Beynəlxalq müsabiqələrdə, seminarlarda, kurslarda müntəzəm olaraq iştirak etmişəm. 2005-ci ildə Fransa Səfirliyi tərəfindən Respublika Fransız dili müəllimləri arasında keçirilən "Les lieux a nepas manquer" müsabiqəsinin qalibi olmuş və Fransanın Bezanson şəhərində "Franche-Compte" Universitetinə ixtisasartırma kursuna göndərilmişəm. Beynəlxalq sertifikata layiq görülmüşəm.

2008-ci ildə Şəki, 2009-da Zaqatala, 2010-da Nabran, 2011-də Qəbələ, 2013-də Gəncə şəhərlərində keçirilən "Village francais" ("Fransız Kəndi") adlı seminar treninqlərin iştirakçısı olmuşam.

2012-ci ildə UNİSEF-in "Ümumi orta təhsil səviyyəsində yeni fənn kurikulumlarının tətbiqi" mövzusunda təlimçilər üçün keçirilən kursun iştirakçısı olmuşam. 2013-cü ildə Göycay, Salyan, Ağdaş, Cəlilabad rayonlarında, 2014-cü ildə Qazax, Göygöl, Salyan rayonlarında, 2015-ci ildə isə Qazax, Cəlilabad rayonlarında, Sumqayıt, Bakı şəhərlərində "Ümumi orta təhsil səviyyəsində yeni fənn kurikulumlarının tətbiqi" üzrə təlimçi işləmişəm.

2012-ci ildə "Öyrədənlərin öyrədəni" Azərbaycan Müəllimlər İnstitutu, 2014-cü ildə Fransa Bezanson Franche-Compte Universitetinin "Video və şəkillə xarici dillərin tədrisi" və "Mahnılarla xarici dillərin tədrisi" modulları üzrə Beynəlxalq sertifikata layiq görülmüşəm.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin yeni atılmış addımlarından biri də məktəb direktorlarının və ya gələcəkdə bu vəzifədə çalışmaq arzusunda olan şəxslərin yalnız müsabiqə yolu ilə seçilməsi və peşə təlimlərinə cəlb olunmasıdır. Bu məqsədlə 2014-cü ilin noyabr ayının son həftəsi 2015-ci ilin mart ayının əvvəlinə qədər 12 həftə ərzində hər şənbə günü Xəzər Universitetində "Potensial Məktəb Direktorları" təlim kursunu bitirmiş və "Peşəkar İnkişaf sertifikatı" almışam.

6 iyun 2015-ci ildə isə Təhsil Nazirliyinin "Potensial Məktəb Direktorları" üçün təşkil etdiyi onlayn imtahandan yüksək bal toplamış, Bakı şəhər Təhsil İdarəsi və Təhsil Nazirliyində müsahibədən keçmişəm.

Mən bir Azərbaycan müəllimi kimi bu diqqət və qayğıya görə Ölkə Başçısı İlham Əliyevə, Təhsil Naziri Mikayıl Cabbarova, rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərova minnətdarlığımı bildirirəm. Azərbaycan dövlətinə və dövlətçiliyinə sədaqətli vətəndaşlar yetişdirmək kimi şərəfli vəzifənin yerinə yetirilməsi üçün əməyimi əsirgəməyəcəm.

**Söylü XƏLİLOVA,**
**Daş Salahlı kənd 1 saylı tam orta məktəbin xarici dil müəllimi**

**2 FEVRAL RESPUBLİKA GƏNCLƏR GÜNÜDÜR**

# BAYRAM TƏDBİRİ KEÇİRİLMİŞDİR

**2 fevral Gənclər Günü rayonumuzda da böyük təntənə ilə qeyd edilmişdir. Hər il olduğu kimi bu il də rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Gənclər və İdman İdarəsi və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon komitəsinin birgə dəstəyi ilə bayram tədbiri keçirilmişdir. Gənclər Mərkəzində təşkil olunmuş tədbirdə idarə, müəssisə, təşkilat rəhbərləri, rayonda çalışan, təhsil alan fəal gənclər və tələbələr iştirak etmişdir.**

Tədbir iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə gül dəstələri qoymuş və əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev tədbiri giriş sözü ilə açaraq bütün gəncləri 2 Fevral Gənclər Günü münasibətilə təbrik etmiş, gələcək fəaliyyətlərində uğurlar arzulamışdır. Qeyd etmişdir ki, ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 2 fevralın Respublika Gəncləri Günü elan olunması müasir gəncliyimiz üçün stimul rolunu oynadı. Artıq ictimai həyatın bütün sahələrində gənclərə etimad göstərilir, onlar irəli çəkilir və daha fəal mövqe tutmaları üçün şərait yaradılır. İkinci forumun keçirilməsi isə böyük bir dövlət sənədinin-Gənclər haqqında Qanunun qəbul edilməsi ilə nəticələndi.

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova tədbirdə çıxış edərək gəncləri təbrik etmiş, rayon rəhbərliyi tərəfindən daim diqqət və qayğı göstərilən gənclər üçün yaradılan şəraitdən danışmışdır. Bildirmişdir ki, bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aktiv qüvvəsinə çevrilib.

Sonra MİHİ Qazax rayon Komitəsinin sədri İsgəndər Qurbanov, YAP Qazax rayon Gənclər Təşkilatının sədri Vüsal İsmayılov, Qazax Dövlət Sosial İqtisad Kolleci Tələbə Gənclər Təşkilatının sədri Elvira Əfəndiyeva, Azərbaycan Dövlət Pedaqoji İnstitutu Qazax filialının TGT-nın sədri Səkinə Əliyeva və başqaları çıxış edərək gəncləri təbrik etmiş, Azərbaycan gənclərinin bugünkü uğurlarından, dövlət tərəfindən gənclərə göstərilən diqqət və qayğıdan danışmışlar.

Tədbirdə rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup fəal gəncə Fəxri Fərman və qiymətli hədiyyələr verilmişdir.

Sonra tədbir bir-birindən şən, şux musiqi sədaları altında bayram süfrəsi arxasında davam etdirilmişdir.

**Nüşabə HÜSEYNOVA**

# "GÖYƏZƏN" QƏZETİNİN XÜSUSİ BURAXILIŞI ÇAP OLUNMUŞDUR

**Rayonumuzda tikinti-quruculuq işləri geniş vüsət almışdır. "Regionlarin sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən abadlıq və yenidənqurma işlərinin nəticəsidir ki, şəhərimizin siması gündən-günə dəyişir, kəndlərimizə yeni-yeni yollar çəkilir, əhali mavi yanacaqla təmin olunur. Bütün bunlar birmənalı şəkildə deməyə əsas verir ki, Qazax rayonu 2015-ci ili uğurla başa vurmuşdur.**

Rayonun kütləvi informasiya vasitəsi olan "Göyəzən" qəzeti şəhərdə, eləcə də kəndlərdə aparılan quruculuq işləri barədə il ərzində mütəmadi olaraq məqalələr dərc etmişdir. Yeni tikilən və istifadəyə verilən məktəblərin, mərkəzlərin, inşa olunan sosial obyektlərin şəkilləri və haqlarında olan yazılar mütəmadi olaraq qəzetin səhifələrində öz əksini tapmışdır.

Bütün bunlarla yanaşı qəzetin kollektivi 2015-ci ildə rayonda aparılan tikinti-quruculuq işləri barədə xüsusi buraxılış hazırlamışdır. "Qazax-2015: Qərbin qapısı" adlanan xüsusi buraxılışda il ərzində görülən bütün işlər geniş əks olunmuşdur. Jurnalın üz qabığında ulu öndər Heydər Əliyevin adını daşıyan parkın şəkli verilmişdir. Jurnal ulu öndər Heydər Əliyevin 1998-ci il 7 oktyabrda Qazaxa səfəri zamanı dediyi: "Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz, bütün Azərbaycan xalqının dayağısınız" sözləri ilə başlayır. Jurnalın üz qabığında əks olunan Qazaxın möhtəşəm emblemi də göz oxşayır.




2015-ci ildə Qazax rayonunun sosial-iqtisadi göstəriciləri barədə jurnalda geniş məqalə dərc olunmuşdur. Müqayisəli şəkildə çap olunan məqalədə rayonun iqtisadi yüksəlişi rəqəmlərin dili ilə verilmişdir.

Jurnalda dərc edilən "Diqqət və qayğı nümunəsi" adlı yazıda Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun kəndlərdə apardığı səyyar-görüşlər barədə məlumat verilmişdir. Rayonumuzda artıq ənənə halını almış ağacəkmə kampaniyası haqqında da geniş yazı dərc edilmişdir.

Jurnalda tikinti-quruculuq işləri ilə yanaşı, rayonun həyatında tarixi əhəmiyyət daşıyan günlər barədə də yazılar dərc olunmuşdur. "I Avropa Oyunlarının məşəli Qazaxda" və Əlağa Şıxlınskinin 150 illik yubileyi münasibətilə keçirilən möhtəşəm tədbiri özündə əks etdirən yazılar jurnalda öz genişliyi və gözəl fotoşəkilləri ilə seçilmişdir.

Jurnalda rayonun Daş Salahlı kəndində Yaponiya Səfirliyinin xətti ilə tikilən həkim məntəqəsi, Kənd Təsərrüfatı İdarəsi üçün yeni inzibati bina və məcburi köçkünlər üçün salınan yeni qəsəbə haqqında da ətraflı məlumat verilmiş, yeni binaları özündə əks etdirən fotoşəkillər yer almışdır. Həmçinin 2015-ci ildə Qazax rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə tikintisinə başlanılan Tarix Diyarşünaslıq və Bayraq Muzeylərinin iş prosesindən bəhs edən yazılar və rəngli fotoşəkillər jurnalla tanış olanlarda böyük təəssürat oyadır. Bundan əlavə rayonumuzda inşa olunan yeni əhəng zavodları haqqında da məlumat verilmişdir.

Jurnalda Heydər Əliyev parkı və orada aparılan işlər haqqında da geniş məqalə dərc edilmişdir. Bundan əlavə jurnalda Qüllənin, Uşaq Əyləncə Mərkəzinin, Fəxri Qazaxlılar parkının, rayonun ünvanını bildirən Obeleskin, YAP Qazax rayon təşkilatının inzibati binasının, Ədəbiyyat Muzeyinin, Gənclər Mərkəzinin, Təyyarə abidə kompleksinin, Bayraq Meydanının, Şahmat Mərkəzinin, Qazax Müalicə Diaqnostika Mərkəzinin, rayon Polis şöbəsinin, Olimpiya İdman Kompleksinin, Mədəniyyət Mərkəzinin, tibb məntəqəsinin, Dəmiryolu vağzalının, Qazax Dövlət Rəsm Qalereyasının, ötən illərdə müasir üslubda inşa olunan körpələr evi-uşaq bağçasının və məktəb binalarının fotoşəkilləri jurnalda öz əksini tapmışdır.

"Yeni artezian quyuları" başlığı altında olan yazıda rayonumuzda istifadəyə verilən artezian quyuları barədə ətraflı məlumat verilmişdir. Jurnal şair-publisist Elçin İsmayılın "Mənim səcdəgahım, qibləm Qazaxdı" şeiri ilə başa çatır. Bu şeirdə şair sanki Qazax rayonunun ensiklopediyasını misralara düzmüşdür. Oxucu jurnalda olanlarla yanaşı, Qazaxın keçmişi, tarixi abidləri haqqında da bu şeir vasitəsilə məlumat alır.

"Qazax-2015: Qərbin qapısı" adlanan xüsusi buraxılış "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl tərəfindən işlənib hazırlanmışdır.

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2016/2017-ci tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə müdavimlərin qəbulu elanı

Azərbaycan Respublikası DİN-in Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Abituriyentlər DİN-in xüsusi - həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında Nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər. (Fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma-6 dəfə; qaçış 100 metr məsafəyə-15 saniyə və 1000 metr məsafəyə-4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması-18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması-18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması-18 dəfə, qaçış 100 metr məsafəyə-19 saniyə və 1000 metr məsafəyə-5 dəqiqə 30 saniyə).

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az <http://www.mia.gov.az> internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına göndərilir.

İmtahanlar test üsulu ilə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və Rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə komissiyanın internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş abituriyentlər dövlət hesabına yataqxana, geyim forması, təqaüd və yeməklə təmin edilir, təhsil aldıqları müddətdə yataqxanada qalırlar. Akademiyada tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiya barədə ətraflı məlumat www.pa.edu.az <http://www.pa.edu.az> internet saytında yerləşdirilmişdir.

Məzunlara "Hüquqşünaslıq" ixtisası, "Polis leytenantı" xüsusi və "Ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə Daxili İşlər Orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2016-cı ilin aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası Daxili İşlər Orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər DİN-in Polis Akademiyasına qəbul edilmirlər.

DİN-in Polis Akademiyasına qəbul üçün namizədlər daimi qeydiyyatda olduqları ərazi üzrə polis idarə və ya şöbələrinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

**- Şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);**

**- Təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat və surəti);**

**- Yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;**

**- Ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);**

**- Oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;**

**- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda);**

Ərizə və sənədlərin qəbulu 2015-cı il fevral ayının 1-dən mart ayının 10-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək aparılacaqdır.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 454-12-78; (012) 590-97-76;**
**Qazax RPŞ-si**
**(070) 725-87-82**
**(050) 392-02-21**
**(022) 295-14-97**

**İTMİŞDİR**

Qazax rayon Qarapapaq kənd sakini İsmayılov İsmayıl İsmandiyar oğlunun adına verilmiş JN - 335 nömrəli torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Məmmədov Kamran Mahmud oğlunun adına verilmiş Attestat itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB33010019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib.
*Fotolar: Salmanındır.*